*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 27-31* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.27*

# AZƏRBAYCANDA ELM VƏ TƏHSİLİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV DÖVRÜ

**Səadət Mustafayeva**
AMEA Folklor İnstitutu. Azərbaycan.
E-mail: mustafayevaseadət2@gmail.com

**Annotasiya.** Məqalədə Azərbaycanda elm və təhsilin inkişafı məsələlərindən bəhs olunmuşdur. Təhsil siyasətinə əsaslanılaraq qeyd edilmişdır ki, elm və təhsilin iki müstəqil sahəni əhatə etməsinə baxmayaraq, onların birini digərindən ayırmaq olmaz. Buna görə də elm və təhsil problemlərinə kompleks şəkildə yanaşılmalıdır. Bu iki müstəqil sistemin qarşılıqlı şəkildə inkişafı zərurət tələb edir. Ona görə ki, elm təhsilsiz, təhsil də elmsiz mövcud ola bilməz. Həmçinin Ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında göstərdiyi böyük xidmətlərindən bəhs olunur. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli elm və təhsil islahatlarının həyata keçirilməsini bu gün Prezident İlham Əliyevin davam etdirdiyi vurğulanır.
**Açar sözlər:** Azərbaycanda təhsil, elm-təhsil islahatı, Ulu öndər, elm və təhsil sistemi, dövlət siyasəti

**Məqalə tarixçəsi:** göndərilib – 16.06.2023; qəbul edilib – 28.06.2023

# THE PERIOD OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF SCIENCE AND EDUCATION IN AZERBAIJAN

**Saadet Mustafayeva**
Institute of Folklore of ANAS. Azerbaijan.
E-mail: mustafayevaseadət2@gmail.com

**Abstract.** The article focuses on the development of science and education policy in Azerbaijan. Based on the concept of education policy, the author notes that science and education cover two independent areas, but one can not isolate one from the other. From this point of view, science education problems should be addressed in a comprehensive manner. The development of these two independent systems is interrelated. Because it is impossible for the scienceless education of science without education.

At the same time, he speaks about the great services rendered by national leader Heydar Aliyev in the development of science and education in Azerbaijan. It is noted that the implementation of the national scientific-educational reforms laid by our great leader Heydar Aliyev is being continued by President Ilham Aliyev today.
**Keywords:** Azerbaijani education, science and education reform, great leader, education and scientific system, state policy

**Article history:** received – 16.06.2023; accepted − 28.06.2023

## Giriş / *Introduction*

Hər bir ölkənin özünəməxsus elm və təhsil sistemi vardır. Azərbaycan da bu baxımdan öz islahatlarını həyata keçirir. Ölkənin inkişafı onun kadr siyasətindən, kadr siyasəti də təhsildən asılıdır.

Elm və təhsil, demək olar ki, iki müstəqil sahəni ehtiva etsə də, onların biri digərindən təcrid olunmaz. Ona görə də elm və təhsil problemlərinə kompleks şəkildə yanaşılmalıdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən biridir və strateji mahiyyət daşıdığına görə, onların inteqrasiyası da labüddür. Bu müstəqil sistemlərin qarşılıqlı əlaqəli şəkildə inkişafı zəruridir. Çünki onların bir-birindən ayrı mövcudluğu qeyri-mümkündür.

Bəşəriyyət tarix boyu təhsilə özünün mənəvi təkamül gücü kimi baxmışdır. “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı”nda göstərildiyi kimi, “Cəmiyyətin tərəqqisinin vacib amilləri olan elm və mədəniyyətin, xalqın intellektual potensialının formalaşması onun təhsil sistemi ilə təmin edilir” [1, s.3].

Təhsil cəmiyyətin gələcəyinə doğru yönələrək onun bərqərar olmasında həlledici rol oynayır. Onun daha demokratik, humanist prinsiplər əsasında inteqrativ xarakterli, humanitar nəticələrə doğru inkişaf etməsinə diqqət yetirilməlidir. İslahatın bütün mərhələlərində təhsilin hər bir pilləsi üzrə toplanmış potensial dünyanın ən inkişaf etmiş, qabaqcıl ölkələrinin təhsil təcrübəsinin fonunda inkişaf etdirilir, bu günün siyasi, iqtisadi və sosial həyat tərzinə uyğun sistem yaradılır.

Şəxsiyyətin, vətəndaşın yetişdirilməsi Azərbaycan təhsil siyasətinin cövhərini təşkil etdiyindən “Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu”nda xüsusi maddə kimi təsbit olunmuşdur: “Azərbaycan Respublikasında təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir” [7, s.11].

## Əsas hissə / *Main Part*

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda elmin və təhsilin inkişafında böyük xidmətləri olmuşdur. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Ulu öndərin qətiyyəti və güclü iradəsi nəticəsində həmin illərdə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilmişdir. Bu illərdə Respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdır.

Heydər Əliyevin müəllifi olduğu Təhsil İslahatı Proqramı yeni dövrün təhsil tarixində əhəmiyyətli yer tutur. Bu islahatlar təhsilin əksər sahələrini əhatə edirdi, ancaq başlıca istiqamət orta ümumtəhsil məktəblərinin inkişafına, onların maddi-texniki bazalarının möhkəmləndirilməsinə yönəldilmişdi.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan müəllimlərinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra uğurlu addımlar atılmışdır. Bu illərdə dövlətimiz tərəfindən müəllimlərin əməkhaqlarının yüksəldilməsi, onların müxtəlif fəxri adlarla təltif olunması və s. pedaqoji kadrların təhsilin keyfiyyətinə marağını xeyli artırmışdır. Təhsilin maddi-texniki bazasının yüksəldilməsi dövlətimizin qarşıya qoyduğu vacib məsələlərdən idi.

Məlumdur ki, 90-cı illərdə baş verən siyasi olaylar təhsilin maddi-texniki bazasına çox güclü təsir göstərmişdir. Məktəblərimizdə hədsiz sıxlıq idi, əksər məktəblər qəza vəziyyətinə düşmüşdü, məktəb avadanlıqları tamamilə yararsız halda idi, eləcə də istilik sistemi yox vəziyyətində idi. Ulu öndər yeni məktəblərin tikintisi ilə bağlı Dövlət Proqramının hazırlanmasını əhəmiyyətli məsələ kimi qarşıya qoymuşdu və 2003-cü il fevralın 17-də Ümummilli lider “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin

əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Sərəncam imzaladı [5].

Bütövlükdə son illər təhsilin inkişafına xidmət göstərən 16 Dövlət Proqramı qəbul edilmişdir. Bu proqramlar məktəbəqədər təhsil, texniki peşə, orta ümumtəhsil və ali məktəblərin inkişafını nəzərdə tutan dövlət əhəmiyyətli fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir.

XX əsrin sonlarında, milli müstəqilliyin bərpasından sonrakı ilk illərdə, xüsusilə 1991-1993-cü illərdə hökm sürən ümumi böhranlı vəziyyət təhsil sahəsində də əsaslı problemlərə gətirib çıxarmışdı. Bu böhranlı vəziyyəti yalnız Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə Respublika rəhbərliyinə yenidən qayıdışından sonra aradan qaldırmaq, elm və təhsil sahəsində dövlət siyasətinin mühüm istiqamətlərini müəyyənləşdirməklə mümkün olmuşdur. Ulu öndər həmin mərhələdən ictimai həyatın ən müxtəlif sahələrində, o cümlədən elmi-intellektual sferada hökm sürən tənəzzülün qarşısını almış, təhsilin öz məcrasına düşməsi, inkişafı üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit formalaşdırmışdır. Elm sahəsində çalışan çoxminli ziyalı ordusuna diqqət və qayğı gücləndirilmiş, xaricə "beyin axını"nın tempi zəiflədilmiş, Azərbaycan elminin milli əsaslar üzərində dünyaya inteqrasiyası başlıca vəzifə kimi aktuallaşdırılmışdır [2, s.111].

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın təhsil siyasətində yeni dövrün başlanğıcı qoyuldu. Onun qəbul etdiyi qərarlara, imzaladığı fərman və sərəncamlara uyğun olaraq təhsil sahəsi canlandı, təhsil islahatlarına rəvac verildi, təhsil sisteminin yenidən qurulması, ən başlıcası isə dünyəvi təhsil sisteminə keçidin təməli qoyuldu. Şübhəsiz ki, həmin dövrdə Ulu öndərin gərgin fəaliyyəti nəticəsində bir sıra mütərəqqi addımlar atıldı. Ölkədə iqtisadi inkişafın təmin olunması dövlət büdcəsinin artımına və öz növbəsində, büdcədən ayrılan vəsait hesabına təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsinə, bütövlükdə təhsil islahatlarının sürətlənməsinə və yenidən qurulmasına gətirib çıxardı. Hər bir cəmiyyətin, dövlətin, millətin gələcəyi onun elmi, təhsili və mədəniyyəti ilə sıx bağlıdır.

Elmə, təhsilə yüksək dəyər verən, bu sahələrin saflığını təmin edən ziyalı, alim adının ucalığını saxlamaq üçün qətiyyətli addımlar atan Heydər Əliyev respublikanın elmi prinsiplər üzərində inkişafının təməlini qoymuş, yeni-yeni məktəblər, elmi-tədqiqat institutları açmış, ali məktəblərə qəbul prosesində şəffaflığı və obyektivliyi təmin etmiş, gələcək naminə azərbaycanlı kadrların hazırlanması üçün minlərlə gənci xarici ölkələrin aparıcı ali təhsil müəssisələrində təhsil almağa göndərmişdir. Ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də, onların birini digərindən təcrid etmək mümkün deyildir. Bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmalıdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Bu iki müstəqil sistemin qarşılıqlı, əlaqəli şəkildə inkişafı zəruridir. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür [2, s.111].

Azərbaycanda qədim tarixi və böyük ənənələri olan elmin sistemli şəkildə inkişaf etdirilməsində XX əsr xüsusi mərhələ təşkil edir. Bütün ideoloji çətinliklərinə baxmayaraq, 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması və fəaliyyəti ilə xalqımız elm sahəsində daha böyük uğurlar əldə etməyə nail olmuşdur. Yeni quruluşun xarakterini, özünəməxsusluğunu nəzərə alan Heydər Əliyev milli müstəqilliyin bərpasından sonra da Elmlər Akademiyasının müstəqil dövlətin prinsiplərinə uyğun statusda fəaliyyət göstərməsi üçün əhəmiyyətli addımlar atmışdır. Bunun bariz nümunəsi ölkə rəhbəri Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Elmlər Akademiyası adı verilməsidir. Bu fərman akademiyanın fəaliyyətinin keçmiş sovet prinsiplərindən tam uzaqlaşaraq, ölkənin və bütünlükdə təmsil etdiyi xalqın milli mənafelərinə və dövlətçilik maraqlarına xidmət etməsinə geniş imkanlar açmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli fərmanı əsasında Milli Elmlər Akademiyasının statusu və əhatə edəcəyi fəaliyyət sahələri müəyyənləşdirilmiş, ölkə üzrə bütün elmi müəssisələrin və ali məktəblə-

rin elmi-tədqiqat işlərinin əlaqələndirmə işi akademiyaya həvalə olunmuşdur. Həmin mühüm tarixi əhəmiyyətə malik olan fərmanla Milli Elmlər Akademiyasının çoxillik fəaliyyəti dövründə ilk dəfə olaraq bu quruma geniş səlahiyyətlərin verilməsi təmin edilmişdir. Qeyd edilən fərmanda deyilir: "Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən Azərbaycan Respublikasındakı bütün elmi müəssisələrin və ali məktəblərin fəaliyyətini əlaqələndirən və istiqamətləndirən Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatıdır [4, s.3].

Heydər Əliyev istər Azərbaycanda, istərsə də onun hüdudlarından kənarda əldə edilməsi mümkün olan bütün nailiyyətlərin əsasını elm və təhsildə görürdü. Elm özünün təbiəti və funksiyalarına görə ümumbəşər dəyər olduğundan, onun inkişafı dünya elmindən və informasiya sistemindən təcrid olunmuş təqdirdə mümkün deyildir. Heydər Əliyevin elmin təşkili və inkişafının idarə olunması konsepsiyasında elmi tədqiqatların informasiya təminatına mühüm əhəmiyyət verilir. Bu məqsədlə Ümummilli lider hələ ötən əsrin 70-ci illərində Azərbaycan alimlərinə ittifaq respublikasının və başqa ölkələrin alimləri ilə elmi əməkdaşlıq əlaqələrini yaratmağı, ümumittifaq elmi konfranslarda və simpoziyumlarda fəal iştirak etməyi, Azərbaycan elmini ləyaqətlə təmsi etməyi məsləhət bilirdi. Hətta sovet hakimiyyəti illərində, kompüterlərin olmadığı vaxtlarda respublikada elmi tədqiqatların informasiya təminatı məsələlərinə toxunarkən, Heydər Əliyev müasir texniki vasitələrin imkanlarından geniş istifadə olunması məsələsinə xüsusi diqqət yetirirdi. Bununla yanaşı, o, özündə müxtəlif xarakterli informasiyaları toplayan kitabxanalara və arxivlərin roluna yüksək qiymət verir, onların milli sərvət kimi qorunub saxlanılmasının dövlət əhəmiyyətli məsələ olduğunu dəfələrlə vurğulayırdı [3, s.7-8].

Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan milli təhsil islahatlarının həyata keçirilməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirir. Müasir dövrümüzdə yeni təlim texnologiyalarının tətbiq olunması islahatın tələbidir. Texnologiya elmi dil elementidir. Texnologiya məqsədə sadə və səmərəli yolla nail olmaqdır. Bu da təlim metodlarının toplusunun süurlu öyrənilməsidir.

Müasir dövrümüzdə təhsil sisteminin yeni normativ hüquqi, iqtisadi və informasiya bazası yaradılmış, yeni tipli elm, təhsil mərkəzləri və təhsil müəssisələri qurulmuşdur. Təhsilin tədris elmi metodiki və informasiya təminatı real tələbata uyğun qurulmuşdur. Azərbaycan Respublikasında Ulu öndər H.Əliyevin "Təhsil millətin gələcəyidir" müdrik kəlamı Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişaf Dövlət Proqramı" (2004-2008-ci illər) ilə yüksək səviyyədə həyata keçırilir. Bu proqramın doxsan yeddi maddəsi təhsillə bağlıdır [6, s.109].

Təhsil sahəsini ölkənin inkişafının prioritetlərindən biri elan etmiş hörmətli Prezidentimiz İlham Əliyev 2004-cü ilin avqust ayında orta ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi proqramını təsdiq edən sərəncam imzalamışdır. Bu Proqram 2005-2007-ci illəri əhatə edirdi və artıq onun reallaşması təmin edilmişdir. Bu gün orta ümumtəhsil məktəblərinin V-XI sinif şagirdlərinin hər 29 nəfərinə 1 kompüter nisbəti həll olunmuşdur. Proqrama qədərki dövrdə isə bu göstərici 1000 şagirdə 1 kompüter nisbətində idi. Həmçinin ölkəmizin tarixində ilk dəfə olaraq Azərbaycan tarixi, kimya, fizika, biologiya fənləri üzrə elektron dərsliklər, təlim materialları və əyani vəsaitlər hazırlanmışdır. Bir neçə məktəbdə "elektron məktəb" layihəsi hazırlanmışdır.

Dövlət başçısının sərəncamı ilə 2008-ci ildə "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012-ci illər)" qəbul olundu. Bu İKT-nın təhsil sistemində tətbiqinin həlledici mərhələsi hesab olunur. Məsələnin aktuallığını nəzərə alaraq Təhsil Nazirliyində bu sahədə yeni idarə yaradılmışdır. Həmin proqramın reallaşması istiqamətində bu gün məqsədyönlü işlər aparılır.

Dövlətimizin təhsillə bağlı qəbul etdiyi inkişafyönlü proqramlar təhsilimizin irnkişafına davamlı xarakter verərək, onu dünya standartları səviyyəsində qurmağa imkan verir. Pedaqoji kadr hazırlığı, xüsusi istedada malik uşaqların

yaradıcılıq potensialının inkişafı, məktəbəqədər təhsilin yenilənməsi, məktəblərin avadanlıqlarla təmin olunması, gənclərin xaricdə təhsil alması, texniki peşə təhsilinin təkmilləşdirilməsi, ali məktəblərin inkişafı və s. məsələlərlə bağlı qəbul olunmuş proqramların bir qismi həyata keçirilmiş, bəziləri isə reallaşmaq üzrədir.

## Nəticə / *Conclusion*

Bu gün qürur hissilə deyə bilərik ki, məktəb tikintisi sahəsində Azərbaycan MDB ölkələri arasında ilk yerlərdən birini tutur. Ulu öndərin siyasətinin uğurlu davamçısı cənab Prezidentimiz məktəb tikintisini çox vacib məsələ kimi qarşıya qoymuş və hazırda bu sahədə yeni Proqramlar reallaşdırılmaqdadır.

Bakı və Abşeron ərazisində yeni məktəblərin tikintisi üzrə ayrıca Dövlət Proqramı qəbul olunmuşdur. Bundan başqa, regionların inkişafına dair Dövlət Proqramında ölkənin ayrı-ayrı bölgələrində məktəb tikintisi məsələsi diqqət mərkəzində durmaqda davam edir.

Belə ki, Azərbaycan Respublikasında elm və təhsilin quruculuğunun inkişafına göstərilən dövlət qayğısı, bu inkişafın daim təmin etdirilməsi, elm və təhsil sahəsində aparılan islahatlar diqqətəlayiqdir.

## Ədəbiyyat / *References*

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat proqramı. – Bakı: Çaşıoğlu, 1999.
2. Cavadova, A. Heydər Əliyev və Azərbaycanda elm-təhsil siyasətinin inkişafı // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII beynəlxalq elmi konfransın materialları // Azərbaycanşünaslığın aktual problemləri. – Bakı, 4-5 may 2017.
3. Əliyeva, A. Heydər Əliyev və Azərbaycan elmi. Kəngərli. – Bakı, 2010.
4. Həbibbəyli, İ. Azərbaycan elminin müasir inkişaf mərhələsinin banisi. – “Azərbaycan”, 2016, 11 dekabr, №275.
5. Qəzənfəroğlu, M. – “Xalq” qəzeti, 2010, 18 iyun http://www.anl.az/down/meqale/xalqqazeti/2010/iyun/125308.htm
6. Səmədov, A. Ümummilli liderimiz H.Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. – Gəncə, 2010.
7. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. – Bakı: Hüquq ədəbiyyatı, 2009.

# РАЗВИТИЕ НАУКИ И ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ В ЭПОХУ ГЕЙДАРА АЛИЕВА

**Саадет Мустафаева**
Институт фольклора НАНА. Азербайджан.
E-mail: mustafayevaseadət2@gmail.com

**Резюме.** Статья посвящена развитию политики науки и образования в Азербайджане. Исходя из концепции образовательной политики, автор отмечает, что наука и образование охватывают две независимые области, но невозможно изолировать одно от другого. С этой точки зрения проблемы научного образования должны решаться комплексно. Развитие этих двух независимых систем взаимосвязано. Потому что образование невозможно без науки. В то же время он говорит об огромных заслугах общенационального лидера Гейдара Алиева в развитии науки и образования в Азербайджане. Отмечается, что и сегодня президентом Ильхамом Алиевым продолжается реализация национальных научно-образовательных реформ, проведенных нашим великим лидером Гейдаром Алиевым.

**Ключевые слова:** образование в Азербайджане, научно-образовательная политика, великий лидер, система образования и науки, государственная политика